# Vətən Fəzail üçün hər şeydən öndə idi



Fəzail Əmir oğlu Ağayev 1961-ci ildə Lerik rayonunun Musavar kəndində dünyaya göz açmışdı. Vətəninə, xalqına, torpağına bağlılıq lap uşaqlıq yaşında onun qəlbinə hakim kəsilmişdi.

Orta məktəbi bitirəndən sonra 2 il Rusiyanın Perm şəhərində Sovet ordusu sıralarında xidmət edir. Ağlı, həyata baxışı, yüksək mənəviyyatı ona hərbi hissədə böyük nüfuz gətirir.

Əsgərlikdən sonra Fəzail Bakı Energetika Texnikumunda təhsil alır. Lerik elektrik şəbəkəsində işə düzəlir. Çox keçmir ki, Fəzail Lerik camaatı üçün etdiyi işlərlə öyünməyə mənəvi haqqı olanlardan birinə çevrilir.

Vətən Fəzail üçün hər şeydən əzəl idi. Onu düşməndən təmizləməyi müqəddəs iş sayırdı. Ona görə də könüllü olaraq ön cəbhədə erməni quldurlarına qarşı mübarizəyə qalxır. Təki vətən yaşasın deyə ölümlə üzüzə dayanır. Bir müddət Goranboy rayonunda döyüşdükdən sonra Füzuliyə gedir. Burada da iştirak etdiyi döyüşlərdə cəsurluq, igidlik, mərdlik nümayiş etdirir. 1994-cü ildə rayonun strateji yüksəkliklərini ələ keçirmək uğrunda qanlı vuruşda şəhid olur.

İndi həmin gündən düz 25 il keçir. Fəzail Vətən, torpaq yolunda şəhid olduğu üçün bütün Lerik camaatı onun qəhrəmanlığı ilə fəxr edir.

✍ **Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

İki sahil.-2019.- 22 avqust. S. 13.